*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 123-129*

https://doi.org/10.62837/2025.9.123

**MÜRŞÜDOVA VENERA MƏMMƏD-HADI QIZI**
Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının
Hərbi İnstitutunun müəllimi

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMALAR:
## Effektiv metodlar və texnologiyalar

**Açar sözlər:** Kommunikativ metod və texnologiyalar, şifahi nitq qabiliyyyəti, dialoq, dinləyici, ünsiyyət, kompüter dəstəkli tədris, qrup, multimedia vasitələri, müasir təlim üsulları.

**Ключевые слова:** Коммуникативные методы и технологии, навыки устной речи, диалог, слушатель, коммуникация, компьютерное обучение, группа, мультимедийные средства, современные методы обучения

**Keywords:** Communicative methods and technologies, oral speaking skills, dialogue, listener, communication, computer-aided learning, group, multimedia tools, modern teaching methods.

**Giriş.** Dövrümüzdə xalqlar arasında beynəlxalq ünsiyyət vasitəsi kimi istifadə olunan dil məhz ingilis dilidir. Qloballaşma dünyada İngilis dilinin əhəmiyyətini və rolunu artırdı. İngilis dilinin beynəlxalq dil statusu alması onun kommunikativ formada öyrənilməsini tələb edir.

Dövrümüzdə xarici dilin öyrənilməsində effektiv metod və texnologiyalar-dan istifadə təhsilin inkişafı üçün bir zərurətdir, çünki innovativ texnologiyaların və müasir effektiv metodların tətbiqi bu fənnin tədris metodikasında yeniliklər edərək müasir təhsil sisteminin strukturunu, məzmununu, formasını, təşkilini, tədris metodlarını, təlim-tədris nailiyyətlərinin qiymətləndirilməsini əhəmiyyətli dərəcədə dəyişdirdi, tədris üsullarının təkmilləşdirilməsi istiqamətində maraqlı və daha səmərəli bir çox alternativlər irəli sürdü [1].

Sadalanan tələblərin diqqətə alınması məhz məhsuldar, yaradıcı təfəkkürü və yeni məlumatları müstəqil əldə etmə yollarını özündə birləşdirən kommunikativ yanaşma metodologiyasına üstünlük verməyi kifayət qədər zəruri edir.

Məqalənin hazırlanmasında məqsəd, ingilis dilinin tədrisində tətbiq olunan üsulların, kommunikativ metod və texnologiyaların müqayisəli təhlili, onların üstün və zəif tərəflərinin təhlil edilməsi və dinləyici üçün uyğun variantın müəyyən edilməsidir [2]. Bu variantların seçilməsi zamanı dinləyicilərin sərbəst vaxtlarının müddəti və onların qavrama qabiliyyəti mütləq şəkildə nəzərə alınmalıdır.

İngilis dilinin tədrisində ünsiyyət və şifahi nitq qabiliyyətinin inkişafı mühüm rol oynayır. İngilis dili dərslərində dinləyicilərin şifahi nitq qabiliyyətinin inkişafında

informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqinə əsaslanan bir sıra kommunikativ metodlar işlənilərək tədris fəaliyyətlərində tətbiq olunmağa başlanılmışdır. Kommunikativ metod (yanaşma) nədir?

Kommunikativ metod (və ya kommunikativ yanaşma) dilin tədrisində onun düzgün istifadəsini və real kommunikasiya bacarıqlarını inkişaf etdirməyə yönəlmiş bir tədris yanaşmasıdır.

Kommunikativ yanaşma, dinləyicilərin təhsil müddətində dili aktiv şəkildə öyrənmələrini təmin edir və onlara dilin real həyatda tətbiqi ilə bağlı əhəmiyyətli bacarıqlar qazandırır.

İnformasiya və kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi, müəllim tərəfindən məşğələlərin daha keyfiyyətli və səmərəli keçirilməsini təmin edir, pedaqoqa təlim materiallarının məzmununu müxtəlif sahələr üzrə həqiqi, real, müasir və dolğun materiallarla zənginləşdirərək dinləyicilərin motivasiyasını gücləndirmək imkanı verir, tələbənin öyrənməsini fərdiləşdirir, ona öz yoldaşları, müəllimləri və tədris edilən dilin daşıyıcıları ilə qurduğu ictimai münasibətlər əsasında xüsusi bilik, bacarıq və vərdişlər qazandırmaqla şifahi nitqin inkişafına təkan verir.

Xarici dilin öyrənilməsində dinləyib-anlama, nitq, oxu və yazma bacarıqlarını inkişaf etdirməklə, kommunikativ təlimin əsas məqsədlərinə - informasiyanın qısa müddətdə əldə edilməsinə, nitq maneələrinin dəf olunmasına, özünü təqdimetmə bacarıqlarının formalaşmasına nail olmaq mümkündür [3]. Kommunikativ təlimlərə müxtəlif metodlar, yanaşmalar, üsul və vasitələr, şifahi və yazılı kommunikativ nitq çalışmaları daxildir [4].

Dövrümüzdə dilin tədrisi zamanı klassik üsullardan deyil, modern və effektiv metodlardan istifadə olunur. Bunlara aşağıdakıları aid edə bilərik:

- İnteraktiv danışıq fəaliyyəti (İnteractive Speaking)
- Söhbət toru (Convesation Grids)
- Tapşırıqlı təlim metodu (Task training method)
- Çevik dəyişmə metodu (Flipped Learning)
- İnformasiya boşluqları (Information Gap)
- Kompüter dəstəkli dil tədrisi (Computer Assisted Language Learning)
- Kompüter vasitəli ünsiyyət (Computer-Mediated Communication)
- Layihə əsaslı təlim (Project based learning)
- mətnlərin dialoqlaşdırılması, oyunlar, komandalar tərkibində müzakirələr, kimi üsullar nümunəvi kommunikativ təlim metodlarına aiddir.

Qeyd olunan təlim metodlarının bir neçəsinin xüsusiyyətlərinə nəzər salaq.

“İnteraktiv danışıq fəaliyyəti” (İnteractive Speaking) müasir dövrdə ən çox istifadə olunan və dinləyicilər arasında ünsiyyət üçün daha səmərəli mühit yaradan fəaliyyət növlərindən biridir. Fərdi və qrup tərkibində şifahi nitqin inkişafını və ünsiyyətin stimullaşdırılmasını təmin edir. Bu metod dinləyici və müəllim arasında, yaxud dinləyicilər arasında fəal münasibətlərin və ünsiyyətin yaranmasına şərait

yaradır, dinləyicilər bir-biri ilə maraqlı ünsiyyətlər və dialoqlar qurmaqla dərsin daha maraqlı keçirilməsini təmin edirlər.

"İnteraktiv danışıq fəaliyyəti" (İnteractive Speaking) pedaqoqla dinləyicinin birbaşa əlaqəsini təmin edən kompleks tədbirlər toplusudur.

Bu metodun əsas üstünlüklərindən biri də dialoqun danışıq dilinə uyğun olması və danışıqda ixtisarlara və jarqonlara yer verilməsidir. Bu metodda vacib olan xüsusiyyətlərdən biri də danışanın çıxışına mane olmadan üz ifadəsi ilə onun fikrinə münasibət bildirməkdir.

Səmərəli tədris üsulu kimi istifadə olunan "İnteraktiv danışıq fəaliyyəti"nə əllərin hərəkəti və bədən dilinin yerli-yerində istifadəsi kimi ünsiyyət vərdişləri daxildir. Dərsin bu metodla tədrisi zamanı səs tonu düzgün seçilməli, ünsiyyət yerində tətbiq olunmalı, dinləyicilər təmkinli, səmimi və dözümlü olmalıdırlar. İntonasiya və dinləyib-anlama kimi fəaliyyətlərə diqqətin artırılması şifahi nitqin inkişafında mühüm rol oynayır.

"İnteraktiv danışıq fəaliyyəti"ni (İnteractive Speaking) təmin edən kompleks tədbirlərə aşağıdakılar daxildir:

- kiçik qruplar tərkibində fəaliyyətlər, müxtəlif oyunlar;
- ictimai mənbələrdən istifadə (bir mütəxəssisin dəvəti, ekskursiyalar);
- sosial layihə və sinifdən xaric tədris metodları (müsabiqələr, müsahibələr, filmlər, tamaşalar, sərgilər);
- yeni mövzuların öyrənilməsi və biliklərin möhkəmləndirilməsi (əyani vəsaitlərlə iş, video, səs materiallarının dinlənilməsi və dialoqlar);
- test;
- qəliz və mübahisəli məsələlərin müzakirəsi;
- problem həll etmə ("qərar ağacı", "beyin fırtınası", "hadisələrin təhlili");
- təlim.

"İnteraktiv danışıq fəaliyyəti" (İnteractive Speaking) aktiv ünsiyyətə və qrup şəklində işləməyə təşviq etdiyi üçün klassik üsullarla müqayisədə üstünlük təşkil edir.

Xarici dilin öyrənilməsində istifadə olunan ən səmərəli və geniş yayılmış üsullardan biri də "Kompüter dəstəkli dil tədrisi" (Computer Assisted Language Learning - CALL) metodudur. CALL xarici dilin öyrənilməsində kompüter və internetdən geniş istifadəni nəzərdə tutur. Bu metodla məşğələlərin tədrisində qrammatik qaydalar ağırlıq təşkil etmədən dolayı yolla öyrədilir və tələbələrin özlərinə xas nitqlərinə üstünlük verilir. Kompüter dəstəkli dil tədrisi diskussiyanı, tənqidi düşüncəni stimullaşdıraraq, dərsdə qarşıya çıxan çətin məsələləri yerinə yetirir, qrup şəklində öyrənən tələbələri yeni üsullar və metodlar tapmaya həvəsləndirir [4].

Kompyüter dəstəkli bu tədris metodu ünsiyyət zamanı tələbələrin özlərini tanıtma bacarıqlarını və fikirlərini ifadə edəbilmə qabiliyyətlərini sürətləndirir, xarici dilin

istənilən yer və zamanda öyrənilməsini mümkün edir. Bu metoddan istifadə zamanı kompüter, dərs kitabları ilə birgə sinif həyatının bütün sahələrinə inteqrasiya edəbilir. Diqqətə alınacaq əsas məqam isə onun yalnız təyinatı üzrə istifadə edilməsidir.

Kompüter və internetin cəmiyyətə inteqrasiyası kompüter vasitəli ünsiyyət (Computer-Mediated Communication - CMC) sisteminin yaranmasına səbəb oldu. Bu sistem, təhsil keyfiyyətinin yüksəlməsinə, tələbələr arasında sürətli ünsiyyətin qurulmasına və aparılan araşdırmaların oxuculara qısa zamanda çatdırılmasına şərait yaradır [5].

CMC-nin tətbiqi ilə tələbələrin dərsdə daha fəal iştirakı təmin edilir. CMC geniş və rahat ünsiyyət mühiti yaradır, tələbələrin sərbəstliyini və nitq səlistliyini artırır, onların xarici dil öyrənmə motivasiyasını gücləndirir, müəllim nəzarətini isə azaldır [6].

CMC-in sinxron və asinxron formaları mövcuddur [7]. Bu formaların dilin tədrisinə təsirini müəyyən etmək məqsədilə çoxlu tədqiqat aparılmış, bu formaların hər birinin dilin öyrənilməsində rolu ayrı-ayrılıqda araşdırılmış, hansının dilin tədrisində daha səmərəli olması təhlil edilmişdir. Bu rejimlərin dilin öyrənilməsindəki rolunu öyrənən mütəxəssilər hesab edirlər ki, məqsəd düzgün təyin edilərək vaxtında tətbiq edilərsə, hər iki ünsiyyət rejimi səmərəli nəticə verə bilər.

Hər iki forma ünsiyyətin reallaşdığı zaman baxımına görə bir-birindən fərqlənir.

Aparılan tədqiqatlar göstərir ki, asinxron formanın tətbiqi daha məqsədəmüvafiqdir, belə ki, tələbə informasiya mübadiləsini vaxt itirmədən həyata keçirə bilir.

Nitq qabiliyyətinin formalaşmasına və inkişafına kömək edən üsullardan biri də "İnformasiya boşluqları" metodudur. Bu metodla tədrisin təşkili zamanı tələbələr rastlaşdıqları çətinlikləri asan və qısa zamanda həll edə bilirlər.

"İnformasiya boşluqları" metodu tələbələr tərəfindən tədqiq olunan mövzunun öyrənilməsində yaranmış informasiya boşluğunun müzakirə edilməklə aradan qaldırılmasını təmin edir, tələbələrin dinləyib-anlama bacarıqlarının formalaşmasına yardımçı olur [8].

Tədrisdə tətbiq olunan üsullardan biri də "Söhbət toru" (Convesation Grids) metodudur. Bu metod, tədris fəaliyyətində əyləncəli tədris mühiti yaratmaqla, dinləyicilərin dərsdən maksimum yararlanmasını təmin edir. Tədris məşğələlərində kiçik həcmli dialoqlardan daha geniş müzakirələrə qədər danışıqlara yer verilir.

Söhbət torunu yaratmaq üçün tələbələrə müstəqil tapşırıqlar təqdim olunur. Bu zaman, təhsilalanlar tərəfindən suallar hazırlanır, mövzuya uyğun sözlük seçilir və mövzunun məntiqi ardıcıllığı müəyyən edilir. Bu üsul dinləyicilərin danışıq fəaliyyətində ardıcıl fikir yürütmək qabiliyyətini formalaşdırır [9].

İngilis dilinin öyrədilməsində istifadə olunan ən yeni üsullar sırasında multimedia vasitələrinin tətbiqi önəmli yer tutur. Multimedia vasitələri dilin sürətli və keyfiyyətli öyrənilməsində güclü təsirə malikdir. Televiziya, radio, kompüter, video

nümunələrindən, həmçinin qəzet, jurnal, bədii kitablar, musiqi parçalarından istifadə etməklə dinləyicilərə xarici dili daha maraqlı və sürətlə tədris etmək olar. Dilin tədrisi zamanı nümayiş etdirilən videofilmlərdən dinləyicilər yeni ifadələr, öyrənir, sözlərin tələffüzü, cümlə quruluşu və bədən dilinin işlənməsi ilə yaxından tanış olurlar [10].

İngilis dilinin öyrənilməsində kommunikativ oyunların da özünəməxsus rolu vardır. Oyunlar şəklində keçirilən təlimdə maraqlı ünsiyyət mühiti yaradılır, uğurlu təlim nəticələrinin alınmasına şərait yaranır.

Qeyd olunan müasir təlim üsulları dinləyicilər tərəfindən dilin səmərəli öyrənilməsini təmin etməklə yanaşı, onların hərtərəfli inkişafına və cəmiyyətə sürətlə inteqrasiyasına şərait yaradır [11].

## XÜLASƏ

Məqalədə müasir dövrdə ingilis dilinin tədrisində kommunikativ yanaşma metodlarının tətbiqi barəsində danışılmış, bu yanaşmaların səmərəli tətbiqi yollarının araşdırılması təhlil edilmiş və əsaslandırılmışdır.

Son zamanlar beynəlxalq dil kimi üstünlük təşkil edən ingilis dilinin öyrənilməsi üçün modern tədris üsullarının internetdə ən çox araşdırılan sahə olması mövzunun aktuallığının göstəricisidir.

İngilis dilinin tədrisində və şifahi nitqin formalaşmasında tətbiq olunan, yuxarıda izahı verilən kommunikativ yanaşma və innovativ metodlar dilin öyrənilməsində əhəmiyyətli rola malikdirlər. Təhsilə inteqrasiya edən müasir texnologiyalar dil öyrənən şəxslər arasında ünsiyyətin yaranmasına və şifahi nitqin inkişafına səbəb olmaqla yanaşı, dinləyicilərin dünyagörüşlərinin artmasına, digər ölkələrin vətəndaşları ilə dialoqların qurulmasına şərait yaradır.

Şifahi nitq bacarıqlarını formalaşdıran kommunikativ metodların, dinləyib-anlama və danışıq fəaliyyəti növlərinin üstünlükləri məqalədə qeyd olunmuş, müxtəlif kompüter dəstəkli tədris üsulları və kommunikativ metodlar barəsində məlumat verilmişdir.

Qabaqcıl ölkələr tərəfindən tədrisin təşkili və metodikası üzrə aparılan elmi araşdırmalar göstərir ki, günümüzdə xarici dilin öyrənilməsində kommunikativ yanaşmalara və innovativ üsullara alternativlər mövcud deyil və kommunikativ yanaşma metodikası xarici dil tədrisinin qızıl metodu adlandırılır.

## РЕЗЮМЕ

В статье рассматривается применение методов коммуникативного подхода в обучении английского языка в современную эпоху, анализируются и обосновываются способы эффективного применения этих подходов.

Тот факт, что современные методы обучения английского языка, который в последнее время стал доминирующим международным языком, являются

наиболее исследуемой областью в интернете, свидетельствует об актуальности темы.

Коммуникативный подход и инновационные методы, используемые в обучении английского языка и в формировании устной речи, о которых говорилось выше, играют важную роль в изучении языка. Современные технологии, интегрированные в образование, не только способствуют построению коммуникации между изучающими язык и развитию устной речи, но и создают условия для расширения кругозора слушателей и установления диалога с гражданами других стран.

В статье отмечены преимущества коммуникативных методов, аудирования и разговорной практики, формирующих навыки устной речи, а также представлена информация о различных компьютерных методах обучения и коммуникативных методах. Научные исследования, проводимые передовыми странами по организации и методике обучения, показывают, что на сегодняшний день альтернатив коммуникативным подходам и инновационным методам в изучении иностранного языка не существует, а методику коммуникативного подхода называют золотым методом обучения иностранного языка.

**Murshudova Venera Mammadhadi qızı**

**COMMUNICATIVE APPROACHES IN ENGLISH LANGUAGE TEACHING: EFFECTIVE METHODS AND TECHNOLOGIES. SUMMARY**

The article discusses the application of communicative approach methods in teaching English in the modern era, analyzes and justifies the study of ways to effectively apply these approaches.

The fact that modern teaching methods for learning English, which has recently become the dominant international language, are the most researched area on the Internet is an indicator of the relevance of the topic.

The communicative approach and innovative methods used in teaching English and in the formation of oral speech, explained above, play an important role in learning the language. Modern technologies integrated into education not only lead to the creation of communication between language learners and the development of oral speech, but also create conditions for increasing the worldview of listeners and establishing dialogues with citizens of other countries.

The advantages of communicative methods, listening comprehension and conversational activities that form oral speech skills are noted in the article, and

information is provided about various computer-supported teaching methods and communicative methods.

Scientific research conducted by advanced countries on the organization and methodology of teaching shows that today there are no alternatives to communicative approaches and innovative methods in learning a foreign language, and the communicative approach methodology is called the golden method of teaching a foreign language.

## Ədəbiyyatın siyahısı

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı. 2010.
2. F.Ə.Hüseynova. İngilis dili. Metodik Vəsait. Bakı, 2015.
3. Abbasova S. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları. Bakı, 2005.
4. Məmmədzadə M. İngilis dilinin tədrisində kommunikativ metod, Bakı 2005.
5. Абрамова, И.Г. Активные методы обучения в системе высшего образования/ И.Г. Абрамова. - М.: Гардарики, -2008. -368 с.
6. Берман, И.М. Очерки методики обучения чтения на иностранном языке/ И.М. Берман: под ред. И.М. Бермана, В.А. Бухбиндера. –Киев: Вища шк. Изд-во при Киев. гос. ун-те, -1977. -175 с.
7. Суворова, Н.А. Интерактивное обучение: Новые подходы/ Н.А. Суворова. -М.: Учитель. -2000. -No1. -С. 25-27.
8. Liu M., Moore Z., Graham L., Lee S. (2002). A look at the research on computer – based technology use in second language learning: A review of the literature from 1990-2000. Journal of Research on Technology in Education.
9. Maxwell D. (1998). Technology and foreign language learning. A report to the Charles E. Culpeper Foundation. Washington, DC: National Foreign Language Center.
10. Marcinek A. (2014). Technology and Teaching: Finding a Balance. Retrieved from http://www.edutopia.org/blog/technology-and-teaching-finding-balance-and-rew - marcinek.
11. Smith B. (2003). Computer-Mediated negotiated interaction: An expanded model. The Modern Language Journal.

**Rəyçi: Fəlsəfə üzrə fəlsəfə doktoru İlhamə Məmmədova**